# Ayaqyoluna getdiyiniz zaman üzünüzü və arxanızı qibləyə tərəf çevirməyin, əksinə, şərqə və ya qərbə tərəf çevirin”

Əbu Əyyub Əl-Ənsaridən (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: "Ayaqyoluna getdiyiniz zaman üzünüzü və arxanızı qibləyə tərəf çevirməyin, əksinə, şərqə və ya qərbə tərəf çevirin”. Əbu Əyyub dedi: “Şama gəldik və tualetlərin qibləyə tərəf tikildiyini gördük və buna görə başqa tərəfə çevrilərdik və Uca Allahdan bağışlanma diləyərdik.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) kiçik və ya böyük ehtiyacını ödəmək istəyən hər kəsə üzünü qibləyə və Kəbəyə tərəf yönəltməyi və həmçinin ona arxa çevirməyi qadağan etmişdir. Əksinə, əgər onun qibləsi Mədinə əhlinin qibləsi kimi olarsa, o, şərqə və ya qərbə tərəf dönməlidir. Sonra Əbu Əyyub (Allah ondan razı olsun) xəbər verdi ki, onlar Şama gəldikdə, ehtiyaclarını ödəmək üçün hazırlanmış tualetlərin Kəbəyə tərəf tikildiyini gördülər. Buna görə onlar bədənlərini qiblədən digər tərəfə çevirərdilər və bununla yanaşı Allahdan bağışlanma da diləyərdilər.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee